Respublika .- 2025.- 6 iyun(№117).- S.

GÜNÜN SİYASİ NƏBZİ











# Ekoloji çağırışlara diplomatik cavab

**Qlobal miqyasda ətraf mühitin qorunması nəinki ekoloji, siyasi, iqtisadi və mədəni-coğrafi amillərin inteqrasiyasında mühüm əhəmiyyətə malikdir. XXI əsrin ekoloji transformasiyası planetar məsuliyyətin yenidən formalaşmasını tələb edir. Yeni düzənin əsas aktorları isə artıq sadəcə inkişaf etmiş ölkələr deyil, həm də yeni çağırışlara çevik cavabvermə qabiliyyətinə malik olan, enerji keçidinə hazır, resurslardan məsuliyyətlə istifadə edən və beynəlxalq ekoloji gündəliyi mənimsəyərək onu qorumağa cəhd göstərən dövlətlərdir.**

Bu mənada Azərbaycanın 2026-cı ildə "Ümumdünya Ətraf Mühit Günü"nə ev sahibi seçilməsi dərin geosiyasi və ekoloji inkişafın nəticəsidir. Əgər 2024-cü ildə ölkəmizin Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi Azərbaycanın iqlim diplomatiyasına daxil etdiyi yeni səhifədirsə, 2026-cı ildə baş tutacaq platforma - "Ümumdünya Ətraf Mühit Günü" artıq bu səhifənin davamı, ölkəmizin qlobal ətraf mühit diskursunda mövqe yüksəlişinin təzahürü olacaq. Cənubi Koreya Respublikasının Jeju adasında keçirilən builki tədbirdə Azərbaycanın estafeti qəbulu dünyanın ekoloji xəritəsində ölkəmizin ideoloji koordinatlarını da dəyişdi. Artıq Azərbaycan beynəlxalq ekologiya nizamında formatlaşdırıcı mövqedən çıxış edir. Qlobal miqyasda ekoloji məsuliyyət və ətraf mühitin mühafizəsi anlayışlarının aktuallaşması sənaye erasına keçidlə birbaşa bağlıdır. Plastik çirklənmə ilə mübarizədən dövri iqtisadiyyat modelinin təşviqinə, "yaşıl enerji" strategiyasından iqlim dəyişmələrinə qədər uzanan çoxşaxəli ekoloji gündəmdə Azərbaycanın yanaşması ekoloji məsuliyyətin institusional və dəyərlər əsaslı təcəssümüdür. Çünki bəşəriyyətin gələcəyi artıq texnoloji inkişafdan deyil, ətraf mühitə kollektiv münasibətinin, təbiətlə münasibətinin necə formalaşacağından asılıdır. Təbii ehtiyatlardan rasional və davamlı şəkildə istifadə, su, torpaq və hava kimi fundamental həyat elementlərinin mühafizəsi, eləcə də ekoloji tarazlığın qorunması çağdaş dövrün mühüm çağırışlarından biri kimi iqlim dəyişmələri, antropogen təzyiqlər və resursların tükənməsi fonunda daha da aktualdır. Azərbaycan dövləti də bu tendensiyaları nəzərə alaraq, ekoloji təhlükəsizliyin təmin edilməsini, Xəzər dənizinin biomüxtəlifliyinin qorunmasını və atmosferin çirklənməsinin qarşısının alınmasını milli prioritetlər səviyyəsinə yüksəltmişdir. Ətraf mühitə dövlət siyasəti səviyyəsində verilən strateji yanaşmanın ideoloji əsasları isə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə formalaşmışdır. Uzaqgörən liderin "təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifələrdəndir" fikri indi də ekoloji dövlətçiliyin bünövrəsini təşkil edən konseptual tezislərdən biri olaraq qalır. Ümummilli liderin siyasi kursunda ekologiya məsələləri, dövlətin davamlı inkişaf strategiyasının ayrılmaz hissəsi kimi təqdim edilmiş, bu istiqamətdə ardıcıl və sistemli tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının su təsərrüfatı tarixində fundamental mərhələlərdən biri məhz ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə atılmış strateji addımlarla bağlıdır. Abşeron yarımadasında 1960-cı illərin sonlarından etibarən müşahidə olunan antropogen təzyiqlər, əhalinin artımı və sənayeləşmənin sürətlənməsi nəticəsində içməli su təchizatında kəskin çatışmazlıqlar yaranmışdı. Su resurslarının coğrafi baxımdan qeyri-bərabər paylanması və təbii ehtiyatların məhdudluğu şəraitində problemin uzunmüddətli həlli dövlət siyasəti səviyyəsində gündəmə gətirilmişdi. Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci illərdə Kür çayından Abşeron yarımadasına suyun ötürülməsini nəzərdə tutan Kür-Bakı magistral su kəmərinin inşasına başlanıldı. Layihə hidrotexniki planlaşdırma və resursların dayanıqlı idarə olunması baxımından Azərbaycan su təsərrüfatının transformasiyası üçün mühüm mərhələ hesab olunur. 1970-1971-ci illərdə həyata keçirilən mühəndis-geoloji tədqiqatlar əsasında I Kür su kəməri istismara verildi. Xəttin fəaliyyəti nəticəsində Bakı və ətraf yaşayış məntəqələrinin içməli su təminatında əhəmiyyətli irəliləyişlər qeydə alındı. Su təchizatının texniki və ekoloji dayanıqlılığını artırmaq məqsədilə 1975-1978-ci illərdə Ceyranbatan su anbarında genişmiqyaslı yenidənqurma və modernləşdirmə işləri aparıldı. Bu tədbirlər regionun su ehtiyatlarının keyfiyyətinin yaxşılaşdırılması ilə yanaşı, suyun paylanması prosesinin optimallaşdırılmasına və istehlak səmərəliliyinin yüksəldilməsinə şərait yaratdı. Lakin intensiv urbanizasiya və sənaye sektorunun genişlənməsi nəticəsində artan tələbat mövcud infrastrukturun imkanlarını məhdudlaşdırmağa başladığı üçün 1978-1988-ci illər ərzində II Kür su kəməri layihəsi həyata keçirildi. Paralel sistem kimi inşa olunan bu kəmər, suyun təkrar paylanması, təchizat elastikliyinin təmin olunması və strateji ehtiyatların formalaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyırdı.



Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu ekoloji siyasət bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl davam etdirilir. Son iki onillikdə Azərbaycanda ekoloji mühitin sağlamlaşdırılması və ekoloji dayanıqlılığın təmin olunması məqsədilə kompleks tədbirlər həyata keçirilmiş, milli və regional səviyyədə ətraf mühitin mühafizəsinə yönəlmiş institusional və hüquqi baza gücləndirilmişdir. 2006-2010-cu illəri əhatə edən "Ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair Kompleks Tədbirlər Planı" ölkədə sistemli ekoloji siyasətin tətbiqi baxımından dönüş nöqtəsi olmuşdur. Sənaye tullantılarının azaldılması, atmosfer havasının keyfiyyətinin yaxşılaşdırılması, yaşıllıq zolaqlarının genişləndirilməsi və tullantıların idarə olunması istiqamətində irimiqyaslı tədbirlər həyata keçirilmişdir. 2010-cu ilin "Ekologiya ili" elan olunması isə dövlət səviyyəsində ekoloji məsələlərə verilən strateji önəmin bariz nümunəsidir. Ekoloji transformasiya yalnız infrastruktur layihələri ilə məhdudlaşmır, həm də maarifləndirmə və insan kapitalının formalaşdırılması ilə müşayiət olunur. Ona görə də ölkəmizin təhsil sistemində ekologiya ilə bağlı biliklərin sistemli şəkildə inteqrasiyası təmin edilmiş, orta və ali təhsil müəssisələrində ekoloji fənlərə, ixtisaslaşmış kadr hazırlığına üstünlük verilmişdir. Universitetlərdə ekologiya mühəndisliyi və iqlim dəyişikliyi üzrə mütəxəssislərin hazırlanması davamlı ekoloji idarəetmənin əsas sütunlarındandır. Lakin təəssüf ki, Ermənistanın 30 illik hərbi işğalı nəticəsində Qarabağ və ətraf ərazilər misli görünməmiş ekoloji dağıntılara məruz qalmış, regionda flora və faunaya ciddi ziyan vurulmuş, meşə örtüyü məhv edilmiş, çay hövzələri çirkləndirilmişdir. Hazırda işğaldan azad olunan ərazilərdə həyata keçirilən yenidənqurma prosesi çərçivəsində ekoloji sabitliyin bərpası və yaşıl inkişafın təmin olunması əsas götürülür. Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan Muxtar Respublikası "yaşıl enerji zonaları" elan edilmiş, bu bölgələrdə bərpaolunan enerji mənbələrinin - günəş, külək və hidroenerji potensialının inteqrasiya olunması istiqamətində praktiki addımlar atılmışdır. Belə yanaşma regionun ekoloji təhlükəsizliyini təmin etməklə yanaşı, ölkənin enerji balansında alternativ mənbələrin payını artırmağa və karbon emissiyalarını azaltmağa yönəlib. Azərbaycan beynəlxalq miqyasda etibarlı ekoloji tərəfdaş kimi çıxış edir və qlobal iqlim çağırışları ilə mübarizədə aktiv iştirak edir. Ölkənin 2030-cu ilə qədər sosial-iqtisadi inkişaf prioritetləri sırasında "təmiz ətraf mühit və yaşıl artım ölkəsi" hədəfi xüsusi yer tutur. Bu strateji çərçivə çirklənmənin azaldılması, təbii ehtiyatların səmərəli idarə olunması və ekoloji innovasiyaların tətbiqini stimullaşdırır. Prezident İlham Əliyevin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi, Azərbaycanın qlobal ekoloji həmrəyliyə verdiyi töhfənin və liderlik iddiasının rəmzidir.



**Fidan ƏLİYEVA,**
**"Respublika".**